

Doğma, canım-varlığım qәdәr sevdiyim Azәrbaycanım mәnim qiblәgahımdır

# ŞӘRQ qapısı

Qәzet 1921-ci ildәn çıxır

Tәsisçi: Naxçıvan Muxtar Respublikası Ali Mәclisi vә Nazirlәr Kabineti

Sayı: 39 (21.449)

27 fevral 2016-cı il, şәnbә

Gündәlik ictimai-siyasi qәzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik

*Rәsmi xronika*

Hәr il dünya azәrbaycanlıları vә әdalәti uca tutanlar Xocalı faciәsi qurbanlarının xatirәsini yad edirlәr.

Azәrbaycan paytaxtının minlәrlә sakini Xocalı soyqırımının 24-cü ildönümü ilә әlaqәdar anma mәrasimindә iştirak etmәk üçün fevralın 26-da sәhәr tezdәn Xәtai rayonunda faciә qurbanlarının xatirәsinә ucaldılmış abidәnin önünә toplaşmışdı.

Azәrbaycan Respublikasının Prezidenti İlham Әliyev vә xanımı Mehriban Әliyeva anma mәrasimindә iştirak etdilәr.

Abidәnin yanında fәxri qarovul dәstәsi düzülmüşdü.

Prezident İlham Әliyev abidәnin önünә әklil qoydu, faciә qurbanlarının xatirәsinә ehtiramını bildirdi.

Baş nazir Artur Rasizadә, Milli Mәclisin Sәdri Oqtay Әsәdov, Prezident Administrasiyasının rәhbәri Ramiz Mehdiyev, Azәrbaycanın birinci xanımı, Heydәr Әliyev Fondunun prezidenti Mehriban Әliyeva abidәnin önünә gül dәstәlәri qoydular.

Mәrasimdә dövlәt vә hökumәt nümayәndәlәri, Milli Mәclisin deputatları, nazirlәr, komitә vә şirkәt rәhbәrlәri, dini konfessiyaların başçıları, habelә qırğından xilas ola bilmiş Xocalı sakinlәri iştirak edirdilәr.

Anma mәrasiminin iştirakçıları abidәnin önünә tәr güllәr düzdülәr.



## Naxçıvanda Xocalı soyqırımının 24-cü ildönümü ehtiramla yad edilmişdir

Fevralın 26-da Naxçıvan şәhәrinin Dövlәt Bayrağı Meydanındakı Xatirә kompleksindә Xocalı soyqırımının 24-cü ildönümü ilә әlaqәdar tәdbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Mәclisinin Sәdri Vasif Talıbov soyqırımı abidәsinin önünә gül qoymuş, Xocalı soyqırımı qurbanlarının xatirәsini ehtiramla yad etmişdir.

Nazirlik, komitә, idarә, müәssisә vә tәşkilatların rәhbәrlәri, hәrbi hissәlәrin komandirlәri, ictimaiyyәtin nümayәndәlәri dә ermәni vәhşiliklәrinin qurbanı olmuş soydaşlarımızın xatirәsini yad etmiş, soyqırımı abidәsinin önünә gül qoymuşlar.

Tәdbirin aparıcıları qeyd etmişlәr ki, ermәni millәtçilәri Azәrbaycan torpaqları hesabına öz dövlәtlәrini yaratmaq vә "böyük Ermәnistan" ideyasını gerçәklәşdirmәk üçün 1905-1907, 1918-1920, 1948-1953-cü illәrdә azәrbaycanlılara qarşı terror, kütlәvi qırğın, deportasiya vә etnik tәmizlәmә hәyata keçiriblәr. 1992-ci il fevralın 26-da törәdilәn Xocalı soyqırımı da ötәn әsr boyu azәrbaycanlılara qarşı törәdilmiş soyqırımı siyasәtinin davamı, ermәni qәddarlığının daha bir tәzahürüdür. Dinc әhaliyә qarşı hәyata keçirilәn bu soyqırımı tәkcә Azәrbaycan xalqına deyil, bütün insanlığa qarşı yönәlmiş әn ağır cinayәtdir.

1992-ci il fevralın 25-dәn 26-na keçәn gecә Ermәnistan silahlı qüvvәlәrinin bölmәlәri, Dağlıq Qarabağda yerlәşdirilmiş ermәni terrorçu dәstәlәri vә keçmiş sovet ordusunun Xankәndi şәhәrindәki 366-cı motoatıcı alayı Xocalı şәhәrinә basqın etdi. Dinc sakinlәr xüsusi amansızlıqla qәtlә yetirildi. Bir gündә 613 nәfәr işgәncә ilә öldürüldü. Onlardan 106-sı qadın, 63-ü uşaq, 70-i ahıl insanlar idi. Xocalı faciәsindә 25 uşaq hәr iki valideynini, 130 uşaq valideynlәrindәn birini itirmiş, 487 nәfәr әlil olmuşdur. 8 ailә tamamilә mәhv edilmiş, 1275 nәfәr әsir götürülmüşdür. Xocalıda qadağan olunmuş mәrmilәrdәn vә kimyәvi silahlardan istifadә edilmiş, ağbirçәk analara, ağsaqqallara, südәmәr körpәlәrә belә aman verilmәmiş, bir gecәdә şәhәr yer üzündәn silinmişdir.

Xocalı soyqırımına ilk hüquqi-siyasi qiymәti ümummilli liderimiz Heydәr Әliyev vermiş, hәlә Naxçıvan Muxtar Respublikası Ali Mәclisinin Sәdri işlәdiyi dövrdә xüsusi bәyanatla Xocalı soyqırımını törәdәnlәri ittiham etmişdir. Ümummilli liderimizin 1993-cü ildә Azәrbaycanda yenidәn siyasi hakimiyyәtә qayıdışından sonra isә Xocalı soyqırımına dövlәt sәviyyәsindә hüquqi-siyasi qiymәt verilmişdir. 1994-cü il fevralın 24-dә Azәrbaycan Respublikası Milli Mәclisinin qәrarı ilә hәr il fevralın 26-sı ölkәmizdә "Xocalı Soyqırımı Günü" elan olunmuşdur. Ümummilli liderin "Xocalı soyqırımı qurbanlarının xatirәsinә sükut dәqiqәsi elan edilmәsi haqqında" 25 fevral 1997-ci il tarixli Sәrәncamı ilә hәr il fevral ayının 26-sı saat $17^{00}$-da Azәrbaycan Respublikasının әrazisindә Xocalı soyqırımı qurbanlarının xatirәsi ehtiramla yad edilir.



Azәrbaycan xalqının ümummilli lideri Heydәr Әliyev Xocalı soyqırımı haqqında hәqiqәtlәrin dünya ictimaiyyәtinә çatdırılması vacibliyindәn danışaraq demişdir: ***"Xocalı soyqırımı XX әsrin әn böyük insan faciәlәrindәn biridir. Xocalıda misligörünmәmiş qәddarlıqla törәdilmiş bu insan qırğınının Yer kürәsinin hәr hansı bir guşәsindә baş vermәsinin qarşısını almaq üçün Xocalı soyqırımı hәqiqәtlәri dünya ictimaiyyәtinә hәrtәrәfli çatdırılmalı vә bütün insanların bu faciәyә öz qәti, birmәnalı mövqelәrini bildirmәlәri üçün ciddi vә mәqsәdyönlü iş aparılmalıdır".***

Ulu öndәrimizin siyasi kursunu davam etdirәn Azәrbaycan Respublikasının Prezidenti cәnab İlham Әliyevin rәhbәrliyi ilә haqq sәsimizin dünya ictimaiyyәtinә çatdırılması, Xocalı soyqırımının tanınması istiqamәtindә ardıcıl iş aparılır. Ölkә rәhbәri Xocalı soyqırımı barәdә demişdir: ***"Harada baş vermәsindәn asılı olmayaraq, biz hәr cür irqi ayrı-seçkiliyi, etnik vә dini zәmindә düşmәnçiliyi bütövlükdә bәşәr cәmiyyәtinә qarşı cinayәt hesab edirik. Dövlәtimiz bundan sonra da Xocalı soyqırımına, Azәrbaycan torpaqlarının Ermәnistan tәrәfindәn işğalına obyektiv qiymәt verilmәsi vә tarixi-hüquqi әdalәtin bәrpası üçün öz fәaliyyәtini davam etdirәcәk, bütün siyasi vә hüquqi vasitәlәrlә belә hallara qarşı barışmaz mübarizә aparacaq".***

Tәdbirdә vurğulanmışdır ki, son illәr Xocalı hәqiqәtlәrinin dünyada tanıdılması, Ermәnistanın törәtdiyi bu cinayәtin beynәlxalq miqyasda ifşası istiqamәtindә sistemli iş aparılır. Heydәr Әliyev Fondunun Rusiya Federasiyasındakı Nümayәndәliyi tәrәfindәn "Xocalıya әdalәt" Beynәlxalq İnformasiya vә Tәşviqat Kampaniyası tәsis olunmuşdur. Kampaniya çәrçivәsindә soydaşlarımızı tәmsil edәn çoxsaylı vәtәndaş cәmiyyәti institutları, gәnclәr tәşkilatları vә diaspor qurumları bu sahәdә hakimiyyәt strukturları ilә birgә sәmәrәli fәaliyyәt göstәrirlәr. Bu gün yalan vә saxtakarlıq üzәrindә qurulmuş ermәni tәbliğat maşınının iç üzü ifşa olunur. Dünya ictimai fikri Xocalı hәqiqәtlәrini qәbul etmәyә başlayır. İslam Әmәkdaşlıq Tәşkilatına üzv ölkәlәrin parlamentlәri "Xocalıya әdalәt" kampaniyasını dәstәklәyәn xüsusi qәtnamә qәbul etmişlәr. Qәtnamәdә Xocalı faciәsi "Ermәni silahlı qüvvәlәri tәrәfindәn dinc әhaliyә qarşı kütlәvi soyqırımı" vә "İnsanlığa qarşı cinayәt" kimi qiymәtlәndirilmişdir.

Xocalı harayı, Xocalı fәryadı ürәklәrdә qanayan yaradır. Bu gün Xocalı harayı dünyanın hәr yerindәn eşidilir, Xocalı qurbanlarının әziz xatirәsi anılır, mitinqlәr, piketlәr keçirilir, ermәnilәrin vәhşiliklәrini әks etdirәn fotoşәkillәr, filmlәr, sәnәdli materiallar nümayiş etdirilir. Dünyanın hәr yerindә bu soyqırımına etiraz edәnlәrin sayı ildәn-ilә artır. Artıq Peru, Meksika, Pakistan, Kolumbiya, Çexiya, Honduras, Sudan, Sloveniya, Bosniya vә Herseqovina parlamentlәri Xocalı faciәsini soyqırımı kimi tanımış, Rumıniya, Kanada vә





Ardı 2-ci sәhifәdә

İordaniya parlamentləri bu barədə xüsusi bəyanat qəbul etmişlər. Bununla yanaşı, Amerika Birləşmiş Ştatlarının 20 ştatının qanunverici orqanı da Xocalı faciəsinin soyqırımı kimi tanınması barədə qərar çıxarmışdır. Uzaq Amerika qitəsində, Asiyada, Avropada, ümumiyyətlə, dünyanın hər tərəfində Xocalı soyqırımının tanınması haqqın, ədalətin təntənəsidir.

Bildirilmişdir ki, Xocalı soyqırımının təşkilatçıları və icraçıları layiqli cəzalarını almalı, insanlıq əleyhinə törədilmiş bu cinayət cəzasız qalmamalıdır. Heç kim unutmamalıdır ki, fevralın 26-sı təkcə Azərbaycan xalqının faciə tarixi deyil, eyni zamanda ölkəmizin ərazi bütövlüyünün bərpası və erməni işğalına son qoyulması uğrunda mübarizə tariximizin də şanlı səhifəsidir. Düşmən bilməlidir ki, Ali Baş Komandanımızın hücum əmrini gözləyən qüdrətli ordumuz şəhidlərimizin qisasını alacaq, üçrəngli bayrağımız işğal olunmuş torpaqlarımızda – Şuşada, Xankəndidə dalğalanacaqdır.

Bu gün gur səslə deyir anam Azərbaycanım:
Döyüş əmri ver mənə, Ali Baş Komandanım!

Yolum oddan-alovdan, yolum qandan keçsə də,
Məhv etmək istəyirəm o mənfur düşmənimi.
Bu ana torpağıma qoy qurban olsun canım,
Döyüş əmri ver mənə, Ali Baş Komandanım!

Hər bir oğul bu yurdun vuran şah damarıdır,
Vətən yoxsa, biz nəyik? – Quru torpaq, quru daş...
Səngərlərdə qurd kimi marıqda dayanmasaq,
Bu yurda nə oğuluq, nə əsgər, nə vətəndaş?!
Vətəndir canım-gözüm, odur şərəfim, şanım,
Döyüş əmri ver mənə, Ali Baş Komandanım!

Qana-qandır bax bu gün mənim andım, şüarım,
Qanımı şərbət kimi içsin Vətən torpağı.
Bir milyon oğlu, qızı şəhid olsa da belə
Dalğalansın Şuşamda Azərbaycan bayrağı.
Qələbədir son andım – odur dinim, imanım,
Döyüş əmri ver mənə, Ali Baş Komandanım!

Muxtar respublikanın rayon mərkəzlərində də Xocalı soyqırımının 24-cü ildönümü ilə bağlı tədbirlər keçirilmiş, soyqırımına məruz qalan xocalılıların xatirəsi ehtiramla yad edilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Qarsda Xocalı soyqırımı qurbanlarının xatirəsi yad edilmişdir

Fevralın 24-də Qars şəhərində bu münasibətlə keçirilən tədbirdə əvvəlcə Xocalı soyqırımı qurbanlarının və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, Azərbaycan və Türkiyə respublikalarının dövlət himnləri səsləndirilmişdir.

Tədbirdə çıxış edən Baş konsul Ayxan Süleymanlı Xocalı soyqırımının XX əsrin ən dəhşətli faciələrindən biri olduğunu diqqətə çatdırmış və bildirmişdir ki, 1992-ci il fevralın 26-da ermənilər və onların havadarları olan sovet ordusunun 366-cı motoatıcı alayı tərəfindən Xocalı şəhərində misligörünməmiş vəhşiliklər törədilmiş, dinc sakinlər amansız işgəncələrlə qətlə yetirilmişlər. Bu dəhşətli faciə təkcə Azərbaycan xalqına qarşı deyil, bütün insanlığa qarşı törədilmiş ən ağır cinayətdir. Bu gün Ermənistanın hakimiyyətində olanlar Xocalı faciəsinin törədilməsinə birbaşa rəhbərlik etmişlər. Baş konsul Xocalı faciəsinə yalnız ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə siyasi hakimiyyətə qayıdışından sonra hüquqi-siyasi qiymət verildiyini bildirmiş, dünyanın bir sıra dövlətləri, o cümlədən Amerika Birləşmiş Ştatlarının 20 ştatı və İslam Əməkdaşlıq Təşkilatı tərəfindən soyqırımı aktı kimi tanındığını diqqətə çatdırmışdır.






Qars Qafqaz Universitetinin dosenti, həmyerlimiz Ellada Gərayzadə çıxış edərək tarix boyu erməni millətçilərinin türk xalqlarına qarşı törətdikləri soyqırımlar barədə məlumat vermiş, Xocalı faciəsinin xalqımız tərəfindən heç vaxt unudulmayacağını bildirmişdir.

Çıxışlardan sonra Xocalı soyqırımı qurbanları və şəhidlərin ruhuna "Qurani-Kərim"dən ayələr oxunmuşdur.

Tədbirdə Xocalı faciəsindən bəhs edən sənədli film göstərilmiş, mərasim iştirakçıları Dağlıq Qarabağ münaqişəsini və Xocalı soyqırımını əks etdirən fotostendlərə baxmış, müxtəlif təbliğat materialları ilə tanış olmuşlar.

Qars vilayət valisinin müavini Əli Karakaya, Qars Şəhər Bələdiyyəsinin sədri Murtaza Karaçanta, Ədalət və İnkişaf Partiyasının Qars vilayəti üzrə rəhbəri Adəm Çalkın, Qars vilayəti Ailə və Sosial Siyasətlər İdarəsinin müdiri Aydın Acay, Qars Qafqaz Universitetinin prorektoru Məhmət Çitil, universitetin müəllim və tələbələri, eləcə də ictimaiyyətin nümayəndələri tədbirdə iştirak etmişlər.

Tədbir kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılmışdır.

## Təbrizdə Xocalı soyqırımının ildönümü qeyd olunmuşdur

***Fevralın 24-də Azərbaycan Respublikasının Təbrizdəki Baş Konsulluğunda Xocalı soyqırımının 24-cü ildönümü münasibətilə tədbir keçirilmişdir.***

Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Təbrizdəki Baş konsulu Əli Əlizadə çıxış edərək demişdir ki, ermənilər tarix boyu "böyük Ermənistan" yaratmaq xəyallarını gerçəkləşdirmək məqsədilə Azərbaycanla yanaşı, Urmiya, Maku, Xoy, Səlmas şəhərlərində, Türkiyənin bir sıra vilayətlərində qətliamlar, terror hadisələri törətmişlər. Təcavüzkar Ermənistan 1992-ci il fevralın 26-da Xocalı şəhərini yerlə yeksan etmiş, qadın, qoca və uşaqlar vəhşicəsinə öldürülmüşdür. Soyqırıma ilk dəfə xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən hüquqi-siyasi qiymət verilmiş, soyqırıma dair həqiqətlər dünya ictimaiyyətinə çatdırılmışdır. Baş konsul soyqırımı tanıyan dövlətlərin və beynəlxalq təşkilatların sayının ilbəil artdığını bildirmiş, hazırda 10-dan artıq ölkənin, o cümlədən Amerika Birləşmiş Ştatlarının 20 ştatının və İslam Əməkdaşlıq Təşkilatı kimi nüfuzlu beynəlxalq təşkilatların Xocalı soyqırımını tanıdığını diqqətə çatdırmışdır.



İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayəti valisinin müavini Əhməd Məhəmmədzadə çıxış edərək tarix boyu insanlığa qarşı törədilmiş cinayətlərdən, o cümlədən Xocalı soyqırımından danışmışdır.

Çıxışlardan sonra Xocalı soyqırımının dəhşətlərindən bəhs edən film nümayiş etdirilmiş, mərasim iştirakçılarına Xocalı faciəsindən bəhs edən videomateriallar, kitab, jurnal və bukletlər paylanılmış, soyqırıma həsr olunmuş fotostendə baxış olmuşdur.

Mərasimdə İran İslam Respublikasının Şərqi Azərbaycan Valiliyinin rəsmi şəxsləri, İran İslam Respublikası Xarici İşlər Nazirliyinin Şimal-Qərb Nümayəndəliyinin rəhbəri, Türkiyə Respublikasının Təbrizdəki Baş konsulu, kütləvi informasiya vasitələrinin əməkdaşları və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

**"Şərq qapısı"**

# Xocalı faciəsi qurbanlarının xatirəsi muxtar respublikamızın bütün rayonlarında anılmışdır

## *Şərur rayonu*



Şərur şəhərindəki "Bahar" kinoteatrında Xocalı soyqırımına həsr olunmuş anım tədbirinin iştirakçıları əvvəlcə kinoteatrın foyesində təşkil edilmiş sərgidə Xocalıda baş verən qanlı faciələri əks etdirən fotoşəkillər, rəsm əsərləri, qəzet və jurnal materialları, kitablar, məktəblilərin bu mövzuda işlədikləri rəsm əsərləri ilə tanış olublar.

Aparıcılar Xocalıda törədilmiş qanlı faciələr, həmçinin ermənilər tərəfindən xalqımıza qarşı 200 ildən artıq bir müddətdə dəfələrlə törədilmiş soyqırımı faktları barədə məlumat veriblər. Qeyd olunub ki, iyirmi dörd il bundan əvvəl bəşəriyyət daha bir erməni vandallığının şahidi olub. İyirmi dörd ildir ki, dünyanın hər tərəfində sülhsevər insanlar bu vəhşi hərəkətin soyqırımı kimi tanınmasını tələb edir, erməni vəhşiliyinin növbəti və dəhşətli nəticələrinin soyqırımı aktı kimi qəbul edilməsini istəyir.

Bildirilib ki, azğınlaşmış erməni silahlı birləşmələrinin, eləcə də onlara açıq-aşkar havadarlıq edənlərin bu soyqırımı aktını törətməkdə məqsədi Azərbaycan xalqının mübarizə əzmini qırmaq və onu bütünlüklə məhv etmək idi. Lakin düşmənin niyyətləri baş tutmadı, dövlətimiz və dövlətçiliyimiz möhkəmləndi, iqtisadiyyatımız dirçəldi, qüdrətli və sarsılmaz milli ordu yaradıldı. Bu gün xalqımız tam əmindir ki, ölkə Prezidentinin apardığı qətiyyətli siyasət nəticəsində işğal olunmuş torpaqlarımız tezliklə azad ediləcək, məkrli düşmən öz layiqli cəzasına çatacaqdır.

Vurğulanıb ki, ermənilərin törətdiyi bu cinayət barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurlu siyasət aparılır. Bunun nəticəsidir ki, artıq bir çox ölkələrdə, o cümlədən ABŞ-ın 20 ştatında ermənilərin soydaşlarımıza qarşı törətdikləri soyqırımı siyasəti qəti şəkildə pislənilib və bu, qəbul edilmiş rəsmi sənədlərdə öz əksini tapıb.

Sonra "Xocalıda son gecə" adlı sənədli film nümayiş etdirilib.

## *Babək rayonu*




Xocalı faciəsinin 24-cü ildönümü Babək rayonunda da dərin hüzn və ehtiramla anılıb. Bu münasibətlə fevralın 26-da rayonda anım mərasimi keçirilib. Rayon ictimaiyyətinin nümayəndələri Mədəniyyət Evinə gələrək Uşaq Yaradıcılıq Mərkəzinin dərnək üzvlərinin Xocalıya həsr olunmuş, ümumilikdə, 100-dək rəsm əsərinin nümayiş etdirildiyi sərgiyə baxıblar. Sərgidə həmçinin faciənin miqyasını özündə əks etdirən çoxsaylı şəkillər, qəzet və kitablar nümayiş etdirilib. İctimaiyyət nümayəndələri ermənilərin və havadarlarının azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı, deportasiya siyasətini özündə əks etdirən stendlərə, rayondakı tam orta məktəblərin istedadlı şagirdlərinin rəsm əsərlərinə baxıblar.

Tədbirin aparıcıları bildiriblər ki, Azərbaycan xalqı son 200 il ərzində erməni şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı siyasətinə məruz qalıb. Bu siyasətin nəticəsidir ki, xalqımız öz tarixi torpaqlarından qovulub, qaçqın və məcburi köçkünə çevrilib, erməni millətçiləri tərəfindən kütləvi qırğınlara məruz qalıb. 1988-ci ildən Dağlıq Qarabağ ətrafında başlayan hadisələr kəndlərin, şəhərlərin dağılması, minlərlə günahsız insanın ölümü ilə nəticələnib. Belə qırğınları törətməklə ermənilər xalqımızı qorxutmaq, onu öz ərazi bütövlüyü və müstəqilliyi uğrunda mübarizədən çəkindirmək, əzəli torpaqlarımıza yiyələnmək niyyətində idilər. Lakin onların bu istəkləri yerinə yetmədi. Bu hadisədən sonra xalqımız öz azadlığı uğrunda mübarizədən nəinki çəkindi, əksinə, əsrlərlə arzusunda olduğu müstəqillik yolundakı mübarizəsində daha əzmkar oldu.

## *Ordubad rayonu*

***Ordubad rayonunda da Xocalı soyqırımının 24-cü ildönümü ilə əlaqədar tədbir keçirilib.***

Rayon Mədəniyyət Evində keçirilən tədbirin iştirakçıları əvvəlcə faciənin ildönümü münasibətilə təşkil edilən sərgiyə baxıblar.

Tədbirdə Azərbaycan xalqının qan yaddaşı olan Xocalı faciəsi, ermənilərin zaman-zaman xalqımıza qarşı törətdikləri vəhşiliklər və soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinin nəzərinə çatdırılması üçün görülən işlər barədə danışılıb. Aparıcılar bildiriblər ki, hər il faciənin ildönümü istər respublikamızda, istərsə də onun hüdudlarından kənarlarda geniş qeyd olunur, faciə qurbanlarının xatirəsi yad edilir, dünya ictimaiyyətinə ermənilərin əsl iç üzü göstərilir.

Mərasimdə bu dəhşətli faciənin Azərbaycan tarixində ən qanlı hadisələrdən biri olduğu, dinc əhalinin xüsusi qəddarlıqla qətlə yetirildiyi, əsir götürülən insanların isə dəhşətli işgəncələrə, zülm və təhqirlərə məruz qaldıqları diqqətə çatdırılıb. Azərbaycanın haqq səsinin eşidiləcəyinə, Xocalı qətliamının təşkilatçılarının cəzalandırılacağına, Azərbaycan xalqının işğal altındakı bütün torpaqlarını yağı düşməndən tezliklə azad edəcəyinə, əzəli torpaqlarımızdan didərgin düşmüş həmvətənlərimizin öz ata-baba yurdlarına qayıdacaqlarına və ölkəmizin ərazi bütövlüyünün bərpa olunacağına əminlik ifadə olunub.



Sonra mərasim iştirakçıları "Sözün bitdiyi zaman" sənədli filminə baxıblar. Ermənilərin törətdikləri cinayətlərdən bəhs olunan və Dağlıq Qarabağ münaqişəsinin reallıqlarını əks etdirən sənədli film tamaşaçılar tərəfindən maraqla izlənilib. Əsas süjet xəttinin uzun illər ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırımı siyasətinin tarixi xronologiyasına həsr olunduğu film erməni vandalizminin son mərhələsi olan Dağlıq Qarabağın işğalı zamanı ermənilər tərəfindən törədilən vəhşiliklərdən bəhs edir.

*Ardı 3-cü səhifədə*

## Kəngərli rayonu



Kəngərli rayonunda Xocalı soyqırımının 24-cü ildönümü münasibətilə anım mərasimi keçirilib.

Əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri Xocalı soyqırımının dəhşətlərini özündə əks etdirən əl işlərindən, fotoşəkillərdən, rəsm əsərlərindən, qəzet, jurnal və kitablardan ibarət sərgiyə baxıblar.

Tədbirdə AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, dosent Emin Şıxəliyev bildirib ki, Xocalı soyqırımının şahidi olmuş müxtəlif xarici ölkə jurnalistləri onu bəşəriyyətin böyük faciəsi adlandırıblar. Bu gün müstəqil Azərbaycan dövlətinin gündən-günə inkişaf edib möhkəmlənməsi və hərbi qüdrətini artırması Xocalı soyqırımı kimi faciələrin bir daha baş verməməsi üçün ən etibarlı təminatdır. Ölkəmizin ərazi bütövlüyünü bərpa etmək, Ermənistanın işğalçılıq siyasətinə birdəfəlik son qoymaq üçün dövlətimizin bütün imkanları vardır. Azərbaycanın ərazi bütövlüyünü təmin etməsi Xocalı şəhidlərinə və torpaq uğrunda canını fəda edən bütün Vətən övladlarına ucaldılan möhtəşəm abidə olacaqdır.

Qeyd olunub ki, Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması istiqamətində Azərbaycanda son illərdə çox işlər görülüb. Bu istiqamətdə həyata keçirilən tədbirlər davam etdirilir. Ermənilərin "quzu cildinə girmiş canavar" obrazını ifşa etmək üçün üzərimizə böyük məsuliyyət düşür.

## Culfa rayonu



Xocalı soyqırımının 24-cü ildönümü ilə əlaqədar Culfa rayonunda keçirilən anım tədbirində rayon İcra Hakimiyyətinin, təhsil, mədəniyyət, səhiyyə müəssisələrinin, digər qurumların kollektivləri, ictimaiyyətin nümayəndələri Culfa şəhər 3 nömrəli tam orta məktəbdə faciənin dəhşətlərini əks etdirən şəkillərdən, qəzet, jurnal materiallarından, tarixi faktları əks etdirən kitablardan ibarət sərgiyə baxıblar. Sərgidə rayon məktəblilərinin Xocalı soyqırımı ilə bağlı çəkdikləri rəsmlər də diqqət çəkirdi. Məktəblilər bu soyqırımı faktına münasibətlərini rəsmləri ilə bildirmişdilər.

Anım tədbirində vurğulanıb ki, erməni millətçiləri Azərbaycan torpaqlarında öz dövlətlərini yaratmaq və "böyük Ermənistan" ideyasını gerçəkləşdirmək üçün dəfələrlə azərbaycanlılara qarşı terror, kütləvi qırğın həyata keçiriblər. Əsassız torpaq iddiaları üzərində qurulan bu proseslərdə erməni faşistləri öz havadarlarına arxalanıblar. 1992-ci il fevralın 26-da baş vermiş Xocalı soyqırımı isə əsrlər boyu azərbaycanlılara qarşı törədilmiş soyqırımı siyasətinin davamı, erməni qəddarlığının daha bir təzahürüdür.

Qeyd olunub ki, bu gün "Xocalıya ədalət" kampaniyası çərçivəsində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər Xocalı soyqırımının bütün dünya ölkələrində tanınmasına imkan verir.

## Şahbuz rayonu

***Dünən Şahbuz rayonunda da xalqımızın qan yaddaşına unudulmaz tarix kimi yazılmış Xocalı soyqırımı qurbanlarının anım mərasimi keçirilib.***



Faciənin 24-cü ildönümü ilə əlaqədar Şahbuz şəhərində keçirilən mərasimdə ictimaiyyət nümayəndələri, ziyalılar, idarə, müəssisə kollektivləri iştirak ediblər.

Əvvəlcə "Bir gecənin fəryadı" adlı sərgiyə baxış olub. Mərasimin aparıcıları bildiriblər ki, mənfur ermənilər XX əsrdə dəfələrlə öz bədxah niyyətlərini həyata keçirməyə səy göstərib, Azərbaycan torpaqlarında böyük qırğınlar törədərək işğalçılıq planlarını həyata keçirməyə çalışıblar. 1992-ci ildə azğınlaşmış erməni quldur dəstələrinin və onların havadarlarının Xocalıda törətdiyi soyqırımı isə tarixdə misligörünməmiş bir vəhşilikdir. Azərbaycanın Xocalı şəhərini yerlə yeksan edən erməni terrorçuları bir gecədə yüzlərlə dinc sakini qətlə yetirib, evlərinə od vurub yandırmışdı. Əliyalın olsalar da, təpədən-dırnağa kimi silahlanmış erməni quldur dəstələrinin qarşısına çıxaraq son damla qanlarına kimi mübarizə aparan Xocalı şəhidləri qəhrəmanlıq tarixi yazdılar.

## Sədərək rayonu

***Xocalı faciəsinin 24-cü ildönümü münasibətilə sərhəd bölgəsi olan Sədərək rayonunda da anım mərasimi keçirilib.***



Mərasim iştirakçıları Sədərək Rayon İcra Hakimiyyəti binasının foyesində təşkil edilmiş sərgiyə baxıblar. Sərgidə qanlı faciədən bəhs edən əsər və məqalələr, faciənin dəhşətli məqamlarını əks etdirən fotoşəkillər və rayonun ümumtəhsil məktəbləri şagirdlərinin əl işləri və rəsm əsərləri nümayiş etdirilib.

Tədbirdə çıxış edən Sədərək kənd 1 nömrəli tam orta məktəbin müəllimi Polad Rzazadə bildirib ki, Xocalı faciəsi bütün beynəlxalq hüquq normalarına məhəl qoymayan Ermənistan dövlətinin Dağlıq Qarabağı özünə birləşdirmək üçün ən ağır cinayət və vəhşiliyə hazır olduğunu bir daha göstərdi. Dünya da gördü ki, XX əsrin faciəsi olan Xocalı soyqırımı aqressiv və cinayətkar erməni siyasətinin nəticəsidir. XX əsrin sonunda baş vermiş bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir.

Diqqətə çatdırılıb ki, Qarabağda baş verən hadisələr zamanı Sədərək rayonu da hücumlara məruz qalıb. Ümumilikdə, mənfur erməni yaraqlıları 1990-1993-cü illərdə Sədərəyə 14 dəfə hücum edib. Həmin ağır günlərdə 109 nəfər şəhidlik zirvəsinə ucalıb. Sədərək bu bölgədə doğulub boya-başa çatan və şəhidlik zirvəsinə ucalan 52 vətənpərvərin yurd yeridir. Onların və ümumilikdə, ərazi bütövlüyümüz uğrunda şəhid olan insanların xatirəsi Sədərəkdə daim uca tutulur.

**Xəbərlər şöbəsi**

# Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib





Xocalı soyqırımı xalqımıza qarşı bir neçə əsr əvvəl başlanan və həyata keçirilən erməni təcavüzünün davamı və tərkib hissəsidir. Həmin faciədə yüzlərlə soydaşımız qətlə yetirilib, işgəncələrə məruz qalıb. Xocalının qəhrəman və fədakar sakinləri düşmən qarşısında əyilməyərək rəşadət və igidlik göstəriblər.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1997-ci il fevral ayının 25-də imzaladığı Sərəncamla hər il fevralın 26-sı saat $17^{00}$-da Azərbaycan Respublikasının bütün ərazilərində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilir.

Dünən Naxçıvan Muxtar Respublikasında da Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, nəqliyyatın hərəkəti dayandırılıb, avtomobillərdən səs siqnalları verilib.

Həmin vaxt xətdə olan sərnişin qatarlarının da hərəkəti dayandırılaraq səs siqnalları verilib.

**Xəbərlər şöbəsi**

*27 fevral Heydər Əliyev adına Hərbi Liseyin yarandığı gündür*

# Ümummilli liderin adının əbədiləşdirildiyi ilk ünvan – Heydər Əliyev adına Hərbi Lisey

***Ümummilli liderimiz Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətləri sırasında milli ordu quruculuğu, ixtisaslı hərbi kadrların hazırlanması xüsusi yer tutur. Hələ Sovetlər İttifaqı dövründə, azərbaycanlıların hərb sahəsindən uzaq salındığı zamanlarda ulu öndərimizin əzmi və təşəbbüskarlığı sayəsində ölkəmizdə hərbi təhsilin inkişafına xidmət edən islahatlar aparılmış, 1971-ci ildə Cəmşid Naxçıvanski adına Respublika Hərbi Təyinatlı Orta İnternat Məktəbi yaradılmışdır. 1972-ci ildən başlayaraq yüzlərlə azərbaycanlı gəncin Sovet İttifaqının müxtəlif ali hərbi məktəblərinə təhsil almağa göndərilməsi də ümummilli liderimizin bu sahədə yüksək təşəbbüskarlıqlarla həyata keçirdiyi tədbirlərdəndir. Məhz həmin dövrdə yetişdirilən milli hərbçi kadrlar ölkəmiz müstəqillik qazandıqdan sonra ordu quruculuğunda mühüm rol oynamışdır.***

Xalqımızın böyük oğlu ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra milli ordu quruculuğu sahəsində daha geniş tədbirlər görüldü. ***"Müstəqil Azərbaycanın bu gün də, gələcəkdə də çox güclü ordusu olmalıdır. Olmalıdır ki, torpaqlarımız bundan sonra işğal edilməsin. Olmalıdır ki, torpaqlarımızın hər bir qarışı qoruna bilsin. Olmalıdır ki, dünya tarixində böyük yer tutmuş sərkərdələr kimi müstəqil Azərbaycanın özünün də hərbi sərkərdəsi olsun"***, – deyən ulu öndərin müdrikliyi və uzaqgörənliyi sayəsində ölkəmizdə qüdrətli milli ordu yaradılmış, onun ixtisaslı hərbçi kadrlarla təminatına böyük qayğı ilə yanaşılmışdır. Naxçıvanda hərbi təmayüllü məktəbin yaradılması da məhz bu uzaqgörənliyin nəticəsində mümkün oldu. Dahi rəhbərin 1998-ci il 13 mart tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı yaradıldı.

1999-cu ilin oktyabrında filialın yeni tədris korpusunun açılışında iştirak edən ümummilli liderimiz bu hərbi təhsil müəssisəsinin yaradılması zərurətindən danışaraq demişdir: ***"Tarixən naxçıvanlı gənclər zabit peşəsinə yiyələnməyə meyilli olublar. Tarixi vərəqləyin, görün Naxçıvandan vaxtilə nə qədər böyük sərkərdələr çıxıbdır. Elə XIX-XX əsrlərin tarixini götürək. Naxçıvan xanları – Kəngərlilər sülaləsindən çar Rusiyasının ordusunda altı general var idi. Onlardan sonuncusu Cəmşid xan Naxçıvanski idi. Əgər sonrakı dövrü, sovet hakimiyyəti dövrünü götürsək, Naxçıvandan yüksək rütbəli, çox dəyərli zabitlər çıxıbdır. ...Ona görə də burada olan gəncləri hərbi peşəyə cəlb etmək üçün hərbi liseyin filialının yaradılması çox zəruri idi"***. Həmin dövrdə 56 kursantla fəaliyyətə başlayan filial ötən dövr ərzində böyük inkişaf yolu keçmiş, Naxçıvanda gənclərin hərb sənətinə marağının artmasına səbəb olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev milli ordu quruculuğunu, gənc hərbçi kadrların yetişdirilməsini prioritet məsələ kimi diqqət mərkəzində saxlayır. Ölkə başçısının 2004-cü il 27 fevral tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının əsasında Heydər Əliyev adına Hərbi Lisey yaradılmışdır. Ulu öndərimizin adını daşıyan ilk ünvan olan Heydər Əliyev adına Hərbi Liseydə ötən dövrdə geniş quruculuq işləri aparılmış, burada ümummilli liderin büstü ucaldılmış, ikimərtəbəli qərargah binası, müasir tədris korpusu və yataqxana binası istifadəyə verilmiş, maddi-texniki baza xeyli gücləndirilmiş, kursantların yaşayış şəraiti yaxşılaşdırılmışdır. Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev 2005-ci il dekabrın 19-da liseydə yaradılan şəraitlə tanış olmuş, kursantlar qarşısında çıxış edərək demişdir: ***"Heydər Əliyev adına Hərbi Liseydə oxumaq böyük şərəfdir və böyük məsuliyyətdir. Bu liseydə təhsil alan gənclər gələcəkdə bizim ordumuzda xidmət edəcəklər. Azərbaycanın müstəqilliyinin keşiyində duracaqlar"***.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Heydər Əliyev adına Hərbi Liseyin fəaliyyətini daim diqqət mərkəzində saxlayır, tədrisin günün tələbləri səviyyəsində təşkili üçün qayğısını əsirgəmir. Bunun nəticəsidir ki, liseydə kursantların hərbi biliklərə dərindən yiyələnməsi üçün hər cür şərait yaradılmışdır. Ötən il liseyin ərazisində əsaslı təmir işləri aparılmış, tədris və yataqxana korpusları ən müasir avadanlıqlarla təchiz olunmuşdur. 750 yerlik yataqxana binasında müasir məişət şəraiti ilə yanaşı, kursantların asudə vaxtlarının səmərəli təşkili və istirahəti də təmin edilmiş, gündəlik mətbuatı izləmək, şahmat və digər idman növləri ilə məşğul olmaq imkanı yaradılmışdır. Liseydə kursantların sağlamlığı, fiziki hazırlığı və qidalanması da diqqət mərkəzində saxlanılır. Müasir avadanlıqlarla təchiz olunmuş 25 çarpayılıq tibb məntəqəsi, idman zalı, futbol meydançası, açıq və qapalı idman qurğuları və digər obyektlər kursantların istifadəsinə verilmişdir.

Liseyin daim təkmilləşdirilən maddi-texniki bazası tədrisin keyfiyyətini yüksəltmişdir. Yaradılan müasir tədris şəraiti, istifadəyə verilən əyani vəsaitlər istər hərbi, istərsə də elmi biliklərin dərindən mənimsənilməsinə və təcrübə əsasında möhkəmləndirilməsinə geniş imkanlar açır. Liseydə 26 sinif otağı, fənn kabinələri, kimya, biologiya, fizika laboratoriyaları, hərbi kabinə, 2 kompüter və 2 linqafon otağı vardır. Sinif otaqları müasir avadanlıqlarla təmin edilmiş, elmi, bədii, hərbi və tarixi ədəbiyyatlarla, ensiklopedik nəşrlərlə təmin olunmuş zəngin kitabxana kursantların istifadəsinə verilmişdir. Hərbi liseydə elektron tədris sistemi vasitəsilə interaktiv dərslərin keçirilməsi diqqət mərkəzində saxlanılır. Bu məqsədlə zəngin elektron dərslik bazası yaradılmış, 10 sinif otağında elektron lövhə quraşdırılaraq distant təhsil sisteminə qoşulmuşdur.

*Ardı 4-cü səhifədə*

Ötən il Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə istifadəyə verilən hərbi kabinə və atəş hazırlığı sinfi gələcəyin zabitlərində ilkin peşə vərdişlərinin formalaşmasına xidmət edir. Burada quraşdırılan kompüter dəstləri və 2 atış monitoru vasitəsilə kursantların real şəraitə uyğun olaraq nişanalma bacarıqları inkişaf etdirilir, yoxlanılır və qiymətləndirilir.



Bütün bu imkanlardan səmərəli istifadə edən müəllim-zabit heyəti bilikli, vətənpərvər, sağlam və əqidəli hərbçilərin yetişdirilməsində əllərindən gələni əsirgəmirlər. Keçirilən dərslərlə yanaşı, müxtəlif disput, olimpiada və yarışlar təşkil olunur, kursantların muxtar respublikada keçirilən tədbir və yarışlarda iştirakı təmin edilir. Bütün bunların nəticəsidir ki, Heydər Əliyev adına Hərbi Liseyin nəticələri ildən-ilə artır, ali hərbi məktəb və akademiyalara qəbul olunan kursantların sayı çoxalır. Təsadüfi deyil ki, hərbi lisey təhsil sahəsindəki nailiyyətlərinə görə 2008-2009-cu tədris ilində ölkəmizdə keçirilən "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinin qalibi olmuşdur. Ötən il təhsilini başa vuran 203 kursant müxtəlif ali hərbi məktəblərdə, o cümlədən 7 nəfər Türkiyə, 2 nəfər isə Rusiya Federasiyasının hərbi akademiyalarında təhsillərini davam etdirirlər. 2014-2015-ci tədris ilində təhsilini xüsusi nailiyyətlərlə başa vuran məzunlardan 1-i qızıl, 1-i isə gümüş medalla təltif edilmişdir. Liseyə kursant qəbulunun ildən-ilə artması da bu təhsil müəssisəsinə olan marağın nəticəsidir. Cari tədris ilində Heydər Əliyev adına Hərbi Liseyə 257 kursant qəbul olunmuşdur. Hazırda liseydə 674 kursant təhsil alır ki, onların 57 nəfəri Bakıdan və respublikamızın müxtəlif bölgələrindəndir.

Heydər Əliyev adına Hərbi Lisey artıq 12 ildir ki, ulu öndərin adına layiq, nümunəvi təhsil müəssisəsi kimi milli ordumuzun savadlı, bacarıqlı, ləyaqətli, vətənpərvər zabitlərlə təmin olunması yolunda fəaliyyət göstərir. Hərbi liseyin zabit-müəllim heyəti, kursant və məzunları bu şərəfli adı doğrultmağa çalışır, Heydər Əliyev yoluna sədaqət nümayiş etdirirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Zabit adını daşımaq böyük məsuliyyətdir və Azərbaycan Ordusunun zabiti kimi xalqımıza və vətənimizə sədaqətlə xidmət etmək qarşınızda duran əsas vəzifədir. Bundan sonra da yaxşı təhsil almalı, hərb sənətinə dərindən yiyələnməli, bilik və təcrübənizi artırmalısınız. Gələcəkdə harada xidmət etməyinizdən asılı olmayaraq, unutmamalısınız ki, siz müstəqil Azərbaycanın qurucusu, ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan hərbi liseyin məzunlarısınız. Bu adı daim uca tutmalı, onu nümunəvi xidmətinizlə doğrultmalısınız"***.

Ali Məclis Sədrinin tapşırıq və tövsiyələri təkcə kursantların deyil, müəllim və zabit heyətinin də qarşısında mühüm vəzifələr qoyur. Kollektiv bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, fiziki cəhətdən sağlam, savadlı və vətənpərvər gənclər yetişdirəcəkdir.

**"Şərq qapısı"**

# Yeni texnologiyaların tətbiqi muxtar respublikanın müasir inkişafının başlıca şərtidir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2004-cü il 28 fevral tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yaradılmış, ötən dövrdə muxtar respublikada rabitə və yeni texnologiyaların davamlı inkişafı təmin edilmişdir.***

Yaxın onilliklər üçün inkişaf perspektivlərinin biliklərə əsaslanan iqtisadiyyatla birbaşa bağlı olduğunu böyük uzaqgörənliklə düşünən ulu öndər ölkəmizdə informasiya-kommunikasiya texnologiyalarının inkişafının təməlini hələ ötən əsrin 70-ci illərində qoymuşdur. Məhz Onun qəbul etdiyi 2003-cü il 17 fevral tarixli "Azərbaycanın inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" ilə Azərbaycanda bu sahədə məqsədyönlü fəaliyyət və gələcək perspektivlər müəyyən edildi.

Ümummilli lider Heydər Əliyevin sosial-iqtisadi inkişaf strategiyasını uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev yeni texnologiyaların inkişafını diqqətdə saxlayır. Bu sahədə qəbul olunan dövlət proqramları və həyata keçirilən mühüm islahatlar nəticəsində Azərbaycan ümumdünya elektron məkanına sürətlə inteqrasiya edir.

Muxtar respublikada da informasiya-kommunikasiya texnologiyalarının inkişafı və əhatə dairəsinin genişləndirilməsi diqqət mərkəzində saxlanılır. Rabitə və informasiya sistemlərinin inkişafı və yeni texnologiyaların tətbiqi məqsədilə reallaşdırılmış məqsədyönlü tədbirlər muxtar respublikanın hazırkı sosial-iqtisadi inkişafında bu sahənin rolunu daha da artırmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 sentyabr tarixli Fərmanına əsasən, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Rabitə və Yeni Texnologiyalar Nazirliyi adlandırılmış, nazirliyin səlahiyyətləri daha da genişləndirilmişdir. Son illərdə muxtar respublikada əhaliyə nümunəvi rabitə xidmətlərinin göstərilməsi məqsədilə konkret vəzifələr müəyyənləşdirilmiş, bu sahədə mühüm irəliləyişlər əldə olunmuşdur. Ötən dövrdə nazirliyin aparatının, mərkəzi poçtun, eləcə də İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzi və texniki binalar əsaslı təmir edilmiş, Babək qəsəbəsində, Şərur və Şahbuz şəhərində yenitipli rabitə evləri tikilərək istifadəyə verilmişdir.

Yeni optik kabel magistrallarının tikintisi böyüktutumlu və keyfiyyətli rabitə əlaqəsinin həyata keçirilməsinə imkan verir. Belə ki, ötən müddət ərzində muxtar respublikanın telekommunikasiya şəbəkəsi beynəlxalq Trans-Asiya-Avropa fiber-optik kabel magistralına qoşulmuş, Naxçıvanın tranzit telekommunikasiya imkanları genişlənmişdir. Magistralın Naxçıvan-Ordubad, Naxçıvan-Sədərək və Naxçıvan-Şahbuz hissələri üzərində qurulan optik rəqəmsal şəbəkələr elektron hökumət və digər xidmətlərin həyata keçirilməsinə şərait yaratmışdır. 2013-2014-cü illərdə muxtar respublikanın telekommunikasiya əlaqələrinin alternativliyinin təmin edilməsi üçün sərhəd xətti boyunca ümumi uzunluğu 242 kilometr olan Sədərək-Ordubad arası 48 lifli fiber-optik kabel magistral xəttinin tikintisi başa çatdırılmışdır. Bu da muxtar respublikanın həm daxili, həm də xarici əlaqələrinin tam kəsintisiz həyata keçirilməsində, elektron hökumət, 4-cü nəsil xidmətlərin və digər informasiya-kommunikasiya texnologiyaları layihələrinin icrasında əvəzsiz rola malikdir.

Yeni nəsil texnologiyaların tətbiqi ilə əlaqədar nəzərdə tutulan 4 mərhələnin 3-ü artıq muxtar respublikada başa çatdırılmışdır. Birinci mərhələdə, 2010-cu ilin may ayında Naxçıvan şəhərini, Babək qəsəbəsini, Nehrəm və Yarımca kəndlərini, ikinci mərhələdə, 2012-ci ilin martında Şərur və Sədərək rayonlarını, üçüncü mərhələdə isə 2014-cü ilin fevralında Şahbuz və Babək rayonlarını əhatə edən 3-cü nəsil telekommunikasiya xidmətlərindən istifadəyə imkan verən NGN avadanlıqları istifadəyə verilmiş, telekommunikasiya şəbəkəsi üzrə sabit telefon nömrələri 7 rəqəmli nömrə planına keçirilmişdir. Koordinattipli ATS-lər müasir tələblərə cavab verən elektrontipli ATS-lərlə əvəz olunmuş, ən ucqar dağ kəndində belə, genişzolaqlı, yüksəksürətli internet və digər müasir telekommunikasiya şəbəkələri istifadəyə verilmişdir. Həmçinin "Evədək optika" layihəsi üzrə görülən işlər də telekommunikasiya sahəsində yeniliklərin əldə olunmasına şərait yaratmışdır.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün muxtar respublikada bütün yaşayış məntəqələrində sabit rəqəmsal telefon xidməti göstərilir. Naxçıvan şəhərində və bütün rayon mərkəzlərində asinxron rəqəmsal istifadəçi xətləri üzərindən genişzolaqlı internet və lokal şəbəkə xidmətləri fəaliyyət göstərir. Həmçinin 3 GSM mobil operatoru və 1 CDMA simsiz rabitə şəbəkəsi yaşayış ərazilərini keyfiyyətli mobil rabitə ilə təmin edir. Bu gün artıq muxtar respublikada yaşayış məntəqələrinin 83 faizdən çoxunu əhatə edən simsiz rabitə şəbəkəsi istifadəyə verilmiş, "Naxtel" abunəçilərinin sayı 5 mini ötmüşdür. Həmçinin bu şəbəkə üzərindən simsiz internet xidməti yaradılmış, muxtar respublika əhalisinin sürətli internetə çıxışı təmin olunmuşdur. "Naxtel"in 90 ədəd 4G LTE 4-cü nəsil baza stansiyası qurulub istismara hazır vəziyyətə gətirilmişdir. Bundan əlavə, "Naxtel"in Billing sistemi üçün əsas və ehtiyat server avadanlıqları Naxçıvana gətirilmiş və quraşdırılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 9 iyul tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzi yaradılmış, mərkəzin Şərur və Culfa şəhərlərində filialları fəaliyyətə başlamışdır. Ötən dövrdə mərkəzin maddi-texniki bazası möhkəmləndirilmiş, 2 ədəd veb server alınmışdır. Həmçinin IP ünvanların çatışmazlığı aradan qaldırılmış, Türkiyə Respublikasının "Türk Telekom" şirkəti ilə əməkdaşlıq protokolu imzalanmış və Türkiyə istiqamətində əlavə fiber-optik kabel xətti çəkilmişdir. Bütün bunların nəticəsidir ki, muxtar respublikaya daxil olan internet kanalının sürəti 2 Gb/s-dək yüksəldilmişdir. Son illər muxtar respublika ərazisində fiber-optik xətlərinin çəkilməsi, kənd yaşayış məntəqələrində yeni nəsil ATS-lərin quraşdırılması internet istifadəçilərinin sayının artmasına da səbəb olmuşdur. Hazırda muxtar respublikanın yaşayış ərazilərinin 93 faizində genişzolaqlı, 83 faizində isə simsiz internet xidmətləri göstərilir.

"Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanının icrası ilə əlaqədar "Elektron hökumət" portalı üzərindən rabitə və internet xidmətləri, elektrik enerjisi, qaz və sudan istifadə haqlarının onlayn rejimdə ödənilməsi təşkil edilmiş, istifadəçilərin portalda qeydiyyatdan keçməsi avtomatlaşdırılmış və portalın təhlükəsizliyi ilə əlaqədar tədbirlər görülmüşdür. Dövlət orqanlarının elektron xidmətlərindən "bir pəncərə" prinsipi əsasında istifadənin təşkili məqsədilə 34 dövlət orqanının xidmətləri portala inteqrasiya edilmişdir. Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən 76 dövlət təşkilatına və 9 idman federasiyasına elektron poçt ünvanları və domen adları verilmiş, həmin təşkilatların internet səhifələri hazırlanaraq qlobal şəbəkədə yerləşdirilmişdir. "Elektron hökumət" portalında mütəmadi olaraq müraciət edən dövlət orqanlarının saytlarında elektron müraciət səhifələri dəyişdirilmiş, müraciətlərin və cavablandırılan məktubların elektron arxiv sistemi yaradılmışdır.

Texnologiyanın sürətli inkişafı elektron imzadan istifadəyə də tələbatı artırmışdır. Bu tələbatı ödəmək məqsədilə mərkəzi poçt şöbəsində elektron imzaların verilməsi təşkil edilmişdir. Bunun üçün Naxçıvan şəhərində server, kompüterlər, kart və pin kodların çapı üçün printerlər qoyulmuş, əməliyyat zalında ərizələrin qəbulu üçün bölmə yaradılmışdır.

Muxtar respublikada elektron təhsil infrastrukturunun yaradılması və təhsildə yeni texnologiyaların tətbiqi diqqət mərkəzində saxlanılır. Son illər bu istiqamətdə işlər daha da genişləndirilmiş, əsaslı təmir edilən və yeni istifadəyə verilən təhsil müəssisələrində kompüter dəstləri quraşdırılaraq internetə qoşulmuşdur. Həmçinin təhsil müəssisələri arasında interaktiv əlaqənin təmin edilməsi üçün distant təhsil sistemi yaradılmış, internet üzərindən interaktiv dərslərin keçilməsi üçün Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin saytında elektron təhsil xidməti istifadəyə verilmiş, orta ixtisas və ümumtəhsil məktəblərinin iştirakı ilə distant dərslərin keçilməsinə başlanmışdır. Dünya təhsil sisteminə inteqrasiya və bu sahədə yeni texnologiyaların tətbiqi istiqamətində görülən işlərin tərkib hissəsi olaraq "Naxçıvan" Universitetində İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzi yaradılaraq texniki avadanlıqlarla təmin edilmiş, müəllim və tələbələrin istifadəsinə verilən kompüterlər daxili şəbəkəyə qoşulmuşdur. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamına uyğun olaraq və "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"nın icrası istiqamətində Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi yaradılmışdır.

Yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqi muxtar respublika ərazisində keyfiyyətli və rəqəmsal radio-televiziya yayımının təşkilinə də əsaslı zəmin yaratmışdır. Ötən dövrdə quraşdırılan 6 güclü və 43 azgüclü verici stansiya vasitəsilə muxtar respublika ərazisində rəqəmsal televiziya yayımına keçid təmin edilmişdir. Hazırda bütün yaşayış məntəqələrində teleradioların rəqəmsal yayımı təmin edilmişdir. Bundan başqa, Duzdağ Radio-Televiziya Verici Stansiyasında qurulan baş stansiya, 7 ədəd güclü rəqəmsal televiziya vericisi vasitəsilə Cənubi Qafqazda ilk dəfə olaraq DVB-T2 standartında 67 televiziya kanalının yayımına başlanılmış, Naxçıvan Dövlət Televiziyasının yüksəkkeyfiyyətli HD formatda efirə çıxışı təmin edilmişdir.

Muxtar respublikada əhaliyə müasir tələblərə uyğun poçt xidmətinin göstərilməsi diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 30 iyul tarixli "Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi yanında "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında" Sərəncamı bu sahədə görüləcək işlərin miqyasını daha da genişləndirmiş, "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətə başlamışdır. Hazırda muxtar respublika ərazisində 8 poçt filialı və 157 poçt bölməsi fəaliyyət göstərir. Poçt filiallarında telefon haqlarının yığılması, beynəlxalq və ölkədaxili pul baratlarının göndərilməsi və qəbulu, kommunal xidmət haqlarının yığılması, teleqramların göndərilməsi və qəbulu tamamilə elektron qaydada həyata keçirilir. Həmçinin internet üzərindən rabitə və kommunal xidmət haqlarının ödənilməsi təşkil edilmişdir. Əhaliyə göstərilən poçt xidmətinin keyfiyyətinin daha da yüksəldilməsi məqsədilə poçt filiallarında və bölmələrində 139 ədəd POS-terminal quraşdırılmışdır. Bundan başqa, "Naxçıvanpoçt"un kompüter şəbəkəsinin Mərkəzi Bankın Hökumət Ödəniş Portalına qoşulması prosesi başa çatdırılmışdır ki, bu da bu sistemə qoşulmuş bütün bank-maliyyə sektorunun və digər qurumların ödənişlərinin poçt məntəqələrində yığılmasına imkan yaratmışdır. Naxçıvan şəhərində qaz və elektrik sayğaclarının daha təkmil olan SMART sayğaclarla dəyişdirilməsinə başlanmışdır. Poçt bölmələrində həmin kartların yüklənməsi işi təşkil olunmuşdur. Bunun üçün Naxçıvan şəhərində 10 poçt bölməsi yeni kompüter, kart oxuyucu ilə təmin edilmişdir.

*Muxtar respublikada rabitə və yeni texnologiyaların tətbiqi və inkişafı istiqamətində işlər bundan sonra da davam etdiriləcək, əhaliyə keyfiyyətli poçt-rabitə xidmətləri göstəriləcəkdir.*

**Naxçıvan Muxtar Respublikası**
**Rabitə və Yeni Texnologiyalar**
**Nazirliyinin mətbuat xidməti**


**ŞƏRQ qapısı**

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: *AZ-7000,*
*Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Hüseynov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1000. Sifariş № 177